## office

**От:** Nicad Qasımov <qasmov.nicad17@bk.ru>
**Отправлено:** 19 июля 2022 г. 22:52
**Кому:** office@barassociation.az
**Тема:** Cənab Sədr Anar Bağırov.

**Hörmətli Cənab Sədr**
**Hörmətli Anar Bağırov**

Azərbaycan Respublikası Vəkillər Kollegiyasına rəhbərlik etdiyiniz dövrdə tərəfinizdən Vəkillik İnstitutunun dinamik inkişafı üçün çox böyük, fundamental islahatlar həyata keçirilmişdir. Bunun bariz nümunəsi olaraq may ayının 13 də İrlandiyanın paytaxtı Dublin şəhərində Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasının plenar iclasında Azərbaycan Respublikası Vəkillər Kollegiyası həmin təşkilata üzv qəbul olunmuşdur. Nəzərə alsaq ki, bu təşkilat özlüyündə ona daxil olan Avropa ölkələrinin vəkillər kollegiyalarının 1 milyondan çox vəkili özündə birləşdirən nüfuzlu bir təşkilatdır, o zaman bilmək olar ki, necə böyk bir qələbəyə imza atmısınız. Sizin son 4 il ərzində davam edən əməkdaşlığınızın, göstərdiyiniz peşəkarlığın, qətiyyətin və iradənin nəticəsi olaraq belə bir uğura imza atmağa nail olduq.
Sizin hüquqşünaslara, əsasən də gənc hüquqşünaslara göstərdiyininz diqqət və qayğı təqdirəlayiqdir. Məhz bu səbəbdən mən də bir gənc hüquqşünas kimi bu ilin mart ayın 6 da keçirilən vəkillik imtahanında iştirak etdim, yazılı test mərhələsini uğurla keçdim. Hal hazırda Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzində təşkil olunan vəkillik imtahanlarına hazırlıq kursunda mütəmadi olaraq iştirak edirəm, növbəti şifahi müsahibə mərhələsinə hazırlaşıram. Belə bir şəraitin yaradılmasına görə Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun. Sizə uzun ömür can sağlığı işlərinizi daim uğurlar arzu edirik.
Diqqətiniz üçün təşəkkür edirəm.
Qasımov Nicad.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2106
«20» 07 2022